

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 99 (23.741)

3 iyun 2021-ci il, cümə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

### *Rəsmi xronika*

İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında telefon söhbəti olub. Dövlət başçıları COVID-19 pandemiyası dövründə Azərbaycan və Çinin həqiqi dostluq nümayiş etdirərək, çətinliklərin öhdəsindən gəldiklərini və bir-birini dəstəklədiklərini məmnunluqla qeyd ediblər. Prezident İlham Əliyev COVID-19 pandemiyası ilə mübarizədə dəstəyə görə ÇXR Sədrinə təşəkkürünü bildirib.

Qeyd olunub ki, Azərbaycan və Çin siyasi, iqtisadi və nəqliyyat-logistika sahələrində uğurla əməkdaşlıq edirlər. Dövlətimizin başçısı Azərbaycanın Çinlə əlaqələri daha da möhkəmləndirməyə hazır olduğunu qeyd edib və Çin şirkətlərinin Azərbaycanda fəaliyyətinin daha da genişləndirilməsini alqışlayıb.

Prezident İlham Əliyev Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə səmimi təbriklərini ÇXR Sədri Si Cinpinə çatdırıb.

Si Cinpin Çin-Azərbaycan münasibətlərinin yeni tarixi mərhələnin astanasında olduğunu vurğulayıb. O, Azərbaycanın "Bir kəmər bir yol" təşəbbüsünün reallaşdırılması istiqamətində vacib tərəfdaş olduğunu və Çinin Azərbaycan xalqının seçdiyi inkişaf yolunu dəstəklədiyini bildirib.



*Şərq qapısı – 100*

## Birəsrlik mətbuat salnaməmiz

### "Şərq qapısı" qəzetinin yüzillik yubileyinin qeyd olunması muxtar respublikada jurnalistikanın inkişafına növbəti dövlət qayğısıdır

***Mətbuat hər bir xalqın milli mədəni tərəqqisinin güzgüsü, cəmiyyətin, dövlətin demokratik-hüquqi inkişafının inikasıdır, – desək, yanılmarıq. Görkəmli maarifpərvər ziyalı Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatının çoxəsrlik tarixinə böyük maarifçilik ənənələrinə malik doğma Naxçıvanımızın da adı qızıl hərflərlə yazılmışdır. Naxçıvanda mətbuatın birəsrlik qədim və zəngin tarixə malik olması dediklərimizi bir daha təsdiq edir. Ümumilikdə, böyük maarifçilik məktəbi, mütərəqqi ideyaların beşiyi sayılan "Şərq qapısı" qəzeti ictimai-siyasi fikir tariximizdə, milli-siyasi təfəkkürün formalaşması və inkişafında mühüm rola malikdir.***

#### *Tarixi sərəncam işığında mətbuat salnaməmizin tarixinə bir nəzər*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı bu mətbu orqanın muxtar respublikamızın ictimai-siyasi, sosial həyatındakı, bütövlükdə, Azərbaycan ictimai-siyasi fikir tarixindəki yerini bir daha aydın təsdiq edir. Sərəncamda deyilir: *"1921-ci il noyabrın 9-da nəşrə başlayan qəzet Naxçıvanda maarifin, elmin və ictimai fikrin inkişafına mühüm töhfələr vermiş, peşəkar jurnalist kadrların hazırlanmasında baza rolunu oynamışdır. Ötən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin qayğısı ilə qəzetin böyük formatda nəşri təmin edilmiş, qəzetdə xalqımızın milli dəyərlərinə və mədəniyyətinə həsr olunmuş yazılar işıq üzü görmüş, 50 illik yubileyi qeyd olunmuşdur. 1990-1993-cü illərdə isə "Şərq qapısı" qəzeti görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın xilası naminə həyata keçirdiyi tədbirləri və qəbul etdiyi tarixi qərarları geniş xalq kütləsinə çatdırmış, informasiya blokadasının aradan qaldırılmasında və milli dövlət quruculuğu yolunda fəal mübarizlərdən olmuşdur.*

*Müstəqillik illərində "Şərq qapısı" qəzetinin maddi-texniki bazası gücləndirilmiş, yaradıcılıq imkanları genişləndirilmiş, rəngli nəşrinə başlanmış, yubileyləri dövlət səviyyəsində qeyd olunmuşdur.*

*"Şərq qapısı" qəzeti Naxçıvanın tarixini və keçdiyi inkişaf yolunu gələcək nəsillərə çatdıran salnamədir. Qəzet bu gün də muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verir".*

1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan "Cavanlar həyatı" qəzetinin nəşrə başlaması ilə Naxçıvanda qəzetçiliyin təməli qoyulmuş, hələ XIX əsrin 90-cı illərindən meydana gələn qəzet nəşr etdirmək ideyası, nəhayət ki, gerçəyə çevrilmişdir. Vərəqə şəklində çap olunan "Cavanlar həyatı" qəzeti iki aya yaxın müddətdə fəaliyyət göstərmiş, 1921-ci ilin dekabrından etibarən Naxçıvanda "Füqəra səsi" adlı yeni bir qəzet nəşr olunmuşdur. 1922-ci ilin aprel ayından nəşr edilməyə başlayan "Şərq qapısı" qəzeti isə müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynamışdır.

Ötən əsrin 70-80-ci illərində "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Qəzetin 50 illik yubileyində "Şərəf nişanı" ordeni ilə təltif olunması həmin dövrdə Azərbaycana rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin mətbuata böyük qayğısının təzahürü idi. Tarixən Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən




"Şərq qapısı" qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüş, 1990-cı il 20 yanvar tarixdən etibarən səkkiz nömrəsi müstəqil çıxan qəzet milli həmrəylik, demokratiya və milli müstəqillik uğrunda mübarizədə ideoloji bayraqdar funksiyasını yerinə yetirmişdir. Ümummilli lider Heydər Əliyevin "Şərq qapısı" qəzetinin 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan müsahibəsi, ulu öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunmuş ilk müsahibə kimi qəzetin fəaliyyət tarixində şanlı səhifəni təşkil edir. Qəzet muxtar respublikamızda fəaliyyət göstərən görkəmli dövlət xadiminin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur. 1990-1993-cü illərdə ulu öndərimiz qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin etmişdir.

Ümummilli liderin Moskvadan Naxçıvana qayıtdıqdan sonra "Şərq qapısı"na verdiyi müsahibədə dediyi bu müdrik kəlam, bütövlükdə, qəzetin tarixi dəyərini ifadə etməklə bu mətbu orqanın sonrakı fəaliyyəti boyu həyat və ideya vəsiqəsinə çevrilmişdir: ***"Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb".***

Bu sadaladığımız faktlara əsaslanaraq istisnasız olaraq deyə bilərik ki, Azərbaycanda söz, fikir və mətbuat azadlığına ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyəti nəticəsində nail olunmuş, bunun ilkin rüşeymləri isə məhz Naxçıvanda – ümummilli lider Ali Məclisin Sədri vəzifəsində işləyərkən qoyulmuşdur. Görkəmli dövlət xadiminin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra müstəqil dövlət quruculuğunda mühüm rol oynayan kütləvi informasiya vasitələrinin cəmiyyətdə ictimai nüfuzunun artması, fəaliyyət dairəsinin genişlənməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür ki, bunun ideal nəticələrini, bu siyasətin davamlı gerçəkləşdirilməsinin bəhrələrini bu gün muxtar respublikada jurnalistikanın inkişafı timsalında aydın görürük.

#### *Müstəqillik işığında muxtar diyarımızda inkişaf edən media*

İftixarla deyə bilərik ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. Muxtar respublikada mətbuatın inkişafı ilə paralel olaraq yüksək nəşriyyat-poliqrafiya mədəniyyəti də formalaşmışdır. 2018-ci ildə dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınmış, sonrakı dövrdə də teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilmişdir.

Bu gün "Şərq qapısı" qəzeti redaksiyasında istər jurnalist peşəkarlığı, istərsə poliqrafik keyfiyyət baxımından müasir tələblərə cavab verəcək, dünya qəzetçilik arenasına çıxa bilən qəzetin nəşri üçün müasir iş şəraiti yaradılmışdır.

2012-ci ildən etibarən *www.serqqapisi.az* saytı vasitəsilə qəzet dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlamış, qəzetin elektron arxiv bazası yaradılmışdır. Sayt 2019-cu ildə tamamilə yenilənmişdir. Qlobal informasiya məkanına çıxış imkanı bu gün Naxçıvanla bağlı dəqiq informasiyanın dünyaya çatdırılmasında mühüm rol oynayır.

"Şərq qapısı" qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuş, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd olunmuşdur. 1996-cı ildə Ali Məclis Sədrinin sərəncamı ilə qəzetin 75 illik yubileyi dövlət səviyyəsində qeyd edilmişdir. Ulu öndərimiz Heydər Əliyevin bu münasibətlə "Şərq qapısı" qəzetinin kollektivinə ünvanladığı təbrik məktubunda deyilir: ***"75 illik şərəfli yaradıcılıq yolu keçmiş "Şərq qapısı" qəzeti öz səhifələrində muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatını, əhalisinin qayğı, istək və arzularını dolğun əks etdirməklə oxucularının rəğbətini qazanmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra "Şərq qapısı" qəzetinin kollektivi öz fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur. Əminəm ki, "Şərq qapısı" qəzeti Azərbaycanın azad və demokratik mətbuat sistemində layiqli yer tutaraq dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda bütün qüvvələrini səfərbər etmək, hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaq üçün var gücünü sərf edəcəkdir".***

2011-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Şərq qapısı"nın 90 illik yubileyi münasibətilə redaksiyanın və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin kollektivləri ilə görüşmüş, qəzet Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri fərmanı ilə təltif edilmiş, bir əməkdaş mənzillə təmin olunmuşdur. Ali Məclisin Sədri həmin tarixi görüşdə demişdir: ***"Qəzet Naxçıvanda maarif və mədəniyyətin, elmin inkişafına mühüm töhfələr vermiş, peşəkar jurnalist kadrların hazırlanmasında baza rolunu oynamış, ictimai fikrə öz təsirini göstərmişdir. Bu gün də cəmiyyətin informasiyaya olan ehtiyacının dolğun ödənilməsində, muxtar respublikamızın sosial-iqtisadi və ictimai-mədəni həyatının işıqlandırılmasında, milli-mənəvi dəyərlərin qorunmasında, günümüzün quruculuq və inkişaf salnaməsinin yazılıb gələcək nəsillərə çatdırılmasında "Şərq qapısı" qəzetinin üzərinə mühüm vəzifələr düşür. "Şərq qapısı" oxucuların, cəmiyyətin maraqlarına xidmət göstərən materialların verilməsini davam etdirməli, əhalinin maarifləndirilməsi və məlumatlandırılması işində fəallıq göstərməlidir. Qəzet çalışıb ona nail olmalıdır ki, hər bir vətəndaşımızda, gənclərimizdə vətənpərvərlik, yurd sevgisi hissləri və milli duyğular güclənsin, milli dəyərlər,***

*Ardı 2-ci səhifədə*

***adət-ənənələr qorunsun, xalq yaradıcılığının, milli mədəniyyətin təbliğinə diqqət artırılsın. Muxtar respublikanın bütün yaşayış məntəqələrinin, eyni zamanda ucqar dağ və sərhəd kəndlərinin həyatı da qəzet səhifələrində obyektiv əksini tapmalı, zəngin mədəniyyətimiz və qədim tariximizlə bağlı materiallar hazırlanmalıdır”.***




Fərəhləndirici haldır ki, bu gün Naxçıvan mətbuatı təkcə birəsrlik zəngin tarixi, çoxsaylı jurnalist ordusunun uğurlu yaradıcılıq fəaliyyəti ilə deyil, həm də bu birəsrlik, “ağsaqqal və müdrik” ideyapərvər bir mətbu orqanın ətrafında cəmləşən çeşidli kütləvi informasiya vasitələrinin məhsuldar və uğurlu fəaliyyəti ilə öyünür. AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin qəzetimizə verdiyi müsahibəsində dediyi fikirlər də “Şərq qapısı”nın mətbu dəyərini, ideya mahiyyətini, siyasi ideoloji əhəmiyyətini bir daha təsdiqləyir. Akademik vurğulamışdı ki, “Şərq qapısı” qəzeti Azərbaycanda davamlı ənənələri ilə seçilən, sabit və inkişafda olan mətbuat orqanlarından biridir. “Şərq qapısı” Naxçıvan Muxtar Respublikasının mətbuat məktəbidir. Muxtar respublikanın digər mətbuat orqanları, o cümlədən Naxçıvan radio və televiziyası da “Şərq qapısı”nın “övladları”dır. Naxçıvanda yaradıcı qüvvələrin inkişafında “Şərq qapısı”nın mühüm rolu vardır. “Şərq qapısı” qəzeti mənim üçün əsl məktəb funksiyasını yerinə yetirib. Yazı-pozu vərdişləri qazanmaq, gənclik illərindən etibarən özünü ifadə etmək baxımından bu mətbuat orqanı yaradıcı gəncliyə, o cümlədən mənə geniş meydan açıb. Hesab edirəm ki, “Şərq qapısı” qəzeti indi də gənc qələmlərin etibarlı bələdçisidir.

AMEA-nın vitse-prezidenti onu da qeyd etmişdi ki, son illərdə “Şərq qapısı” qəzetində publisistikanın səviyyəsinin yüksəldilməsini, jurnalistikanın müxtəlif janrlarına müraciətin genişləndiyini müşahidə edirəm. Bunlar qəzetçilik baxımından çox müsbət meyillər və yaxşı nəticələrdir.

Bu gün muxtar respublikamızda bütün sahələrdə əldə olunan inkişaf kütləvi informasiya orqanlarının da fəaliyyətinə öz müsbət təsirini göstərmişdir. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2007-ci ildə isə Televiziya və Radio Şurasının yaradılması bu sahənin inkişafına ciddi təkan vermişdir .

Hazırda muxtar respublikada “Şərq qapısı” ilə yanaşı, 8 şəhər və rayon qəzeti, Universitet televiziya və radiosu da daxil olmaqla, 3 televiziya, 3 radio və 6 nəşriyyat fəaliyyət göstərir, kütləvi informasiya orqanlarında 400-dən artıq əməkdaş çalışır. Bu gün muxtar respublikada bütün qəzet və jurnallar yüksək poliqrafik keyfiyyətlə nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə mətbuat sahəsində çalışanların əməkhaqları artırılmış, əməyi ilə fərqlənən jurnalistlər fəxri adlara layiq görülmüşlər.

Ali Məclis Sədrinin mətbuat orqanlarına olan hərtərəfli qayğısı kütləvi informasiya vasitələrində keyfiyyət dəyişikliyinin yaranmasına səbəb olmuşdur. Bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradılmışdır.

Ali Məclis Sədrinin 2021-ci il 17 mart tarixli Fərmanı ilə Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əsasında yaradılan “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti, o cümlədən “Naxçıvanın səsi” radiosu və “Kanal 35” televiziyası ən müasir rəqəmsal bazaya malikdir. Cəmiyyətin 2016-cı ildə saytı istifadəyə verilmiş və televiziya internet üzərindən yayıma başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 6 fevral tarixli Sərəncamına əsasən yaradılan “Nuhçıxan” İnformasiya Agentliyi hazırda muxtar respublika ilə bağlı ən mühüm informasiya, təhlil və analitik məqalələri üç dildə, eləcə də foto və videoinformasiyaları dünyaya çatdırır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Artıq “Kanal 35” televiziyası və “Naxçıvanın səsi” radiosu bu ilin əvvəlindən təhsillə bağlı televiziya və radio proqramlarını hazırlayan və yayımını həyata keçirən teleradio yayımçısı kimi fəaliyyətini davam etdirir.

Naxçıvan Mətbuat Şurasının 2019-cu ildən etibarən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması isə Naxçıvan mediasının beynəlxalq müstəviyə çıxarılma səviyyəsini təsdiqləyir, eyni zamanda bu sahədə əlaqələrin genişlənməsinə də zəmin yaradır.

Muxtar respublikada jurnalistika sahəsində kadr potensialının formalaşdırılmasına göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün “Şərq qapısı”nda təcrübəli jurnalist həmkarlarımızla yanaşı, gənc əməkdaşlar da çalışır. Onlardan 2-si Naxçıvan Dövlət Universitetinin magistratura pilləsində təhsil almışdır. “Şərq qapısı” qəzeti hami təşkilat kimi Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası ilə birgə muxtar respublikada ali təhsilli mütəxəssis hazırlığı, tələbə-jurnalistlərin mətbuatda çıxışlarının təşkili ilə bağlı tədbirlər həyata keçirməkdədir.

“Şərq qapısı” qəzetinin əməkdaşları son illər ərzində peşəkar, prinsipial və məhsuldar fəaliyyəti ilə muxtar respublikada jurnalist liderliyini qoruyub müxtəlif yaradıcılıq müsabiqələrində fəallıqla iştirak etmiş, uğurlar qazanmışlar. 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu tərəfindən keçirilən “Naxçıvan: dünən və bu gün” yaradıcılıq müsabiqəsində qəzet əməkdaşı üçüncü yerə layiq görülmüşdür. Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi münasibətilə 2019-cu ildə “Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü” mövzusunda keçirilən müsabiqədə qəzet əməkdaşları birinci və ikinci yerlərin sahibi olmuşlar. 2020-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Azərbaycan milli mətbuatının yaranmasının 145 illiyi münasibətilə keçirdiyi yaradıcılıq müsabiqəsində “Şərq qapısı” iki istiqamət üzrə birinci yerin qalibi olmuş, bir əməkdaşı isə “Naxçıvan Muxtar Respublikasında informasiya təhlükəsizliyinin təmin olunması və mətbuatın inkişafı sahəsində görülən işlərin təşviq edilməsi” istiqaməti üzrə üçüncü yerə layiq görülmüşdür.

Bütün bunlar muxtar respublikada uğurlu mətbu siyasətin təcəssümüdür. Qazanılan uğurlar Naxçıvanı dünyaya böyük vətənpərvərlik sevgisi ilə sevdirmək məramının, Naxçıvan həqiqətlərinin dünyaya düzgün çatdırılmasının, vaxtilə Naxçıvana ərazi blokadasından da ağır zərbələr vuran informasiya blokadasının yarılması, informasiya təminatının düşünülmüş şəkildə təşkilinin bəhrələridir. 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələrinin fəaliyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilən tarixi müşavirə, Ali Məclis Sədrinin media nümayəndələri ilə müntəzəm görüşü, istər milli mətbuatın, istərsə də “Şərq qapısı” qəzetinin yubileyləri zamanı tarixi çıxışları hər bir jurnalist üçün müəyyənləşdirilmiş istiqamət, gələcək fəaliyyət kodeksləridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov milli mətbuatımızın 145 illik yubileyində jurnalistlərlə keçirilən görüşdə demişdir: ***“Mətbuat işçiləri dövrün salnaməsini yaradan və onu gələcəyə daşıyanlardır. Muxtar respublikada jurnalistlərin fəaliyyəti üçün yaradılan şərait qarşıya qoyulan vəzifələri yerinə yetirməyə imkan verir. Bu gün dünyada mövcud olan muxtar qurumların mətbuat sahəsinə nəzər saldıqda, müqayisə etdikdə bir daha aydın olur ki, muxtariyyət statusu bizdən daha çox olanlarda belə, Naxçıvandakı qədər mətbuata qayğı göstərilmir, şərait yaradılmır. Bu da bizi qürurlandırır ki, muxtar respublikamızda vətənpərvər jurnalistlər ordusu formalaşıb. Televiziya, qəzet və digər media qurumları yaratmaq işin bir tərəfidir. Amma əsas məsələ onların səmərəli fəaliyyətinə nail olmaqdır”.***

### *Tarixi sərəncam – böyük məsuliyyət, gələcək şərəfli fəaliyyət*

“Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə” 2021-ci il 1 iyun tarixli Sərəncam imzalanması və bu sərəncamla Tədbirlər Planının təsdiq olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir. Tədbirlər Planına əsasən “Şərq qapısı” qəzeti və Naxçıvanda mətbuatın inkişafı” mövzusunda elmi konfransın, yubileylə bağlı yaradıcılıq müsabiqəsinin keçirilməsi, kitabın nəşrə hazırlanması və digər tədbirlər muxtar respublikamızın mətbuat tarixinin müasir milli və bəşəri ideyalar müstəvisində yenidən araşdırılıb öyrənilməsinə öz töhfəsini verəcəkdir. Bu tarixi sərəncam, eyni zamanda biz jurnalistlər qarşısında muxtar respublikamızda həyata keçirilən məqsədyönlü və çoxşaxəli siyasətin layiqli təbliğatçısına çevrilmək, fəaliyyətimizi qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğun qurmaq, obyektivlik, peşəkarlıq, modernləşmə kimi mühüm vəzifələr də qoyur!

*“Şərq qapısı” qəzetinin kollektivi muxtar respublika jurnalistləri adından mətbuatımızın yaxın dostu və himayədarı kimi Ali Məclisin Sədrinə dərin minnətdarlığını bildirir, muxtar respublika rəhbərini əmin edirik ki, dəyərli tövsiyə və tapşırıqlarınızı fəaliyyət prinsipləri kimi rəhbər tutaraq, zəngin tarixi ənənələri inkişaf etdirərək Qoca Şərqin qapısında dahi öndər Heydər Əliyev ideyalarına sədaqət üzərində qurulmuş siyasətin uğurlarını, bu qədim diyarın müasir inkişaf dinamikasını bundan sonra da inamla təbliğ edəcəyik. Redaksiyanın kollektivi muxtar respublikamızın tarixinin salnaməläşdirilməsi üçün bundan sonra da var-qüvvəsini əsirgəməyəcək. Birəsrlik şərəfli inkişaf yolu keçən, sağlam məfkurəli ideyası ilə doğma Naxçıvanımızın real salnaməsinə çevriləcəkdir.*

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

*Dövlət proqramı icra olunur*

## Nağdsız ödənişlər sahəsində fəaliyyət genişləndirilir

Müasir dövrümüzdə texnologiyadan istifadənin ildən-ilə artması banklar tərəfindən təklif edilən xidmətlərin çeşidliliyinin çoxalmasına səbəb olur. Bu sahədə formalaşan rəqabət mühiti rəqəmsal ödəniş vasitələrinin də fərqli növlərinin ortaya çıxmasına imkan yaradır. Təklif edilən xidmətlərdən səmərəli istifadə nəticəsində fiziki və hüquqi şəxslər maliyyə hesablaşmalarını rahatlıqla həyata keçirirlər.

Dünyada meydana çıxan yeniliklərə çevik reaksiya verilməsi və modern texnoloji imkanların qısa müddət ərzində tətbiqinin təmin olunması muxtar respublikamızda artıq ənənəyə çevrilmişdir. Kənd təsərrüfatından təhsilə, rabitə xidmətlərindən enerji sektoruna, sosial-iqtisadi həyatın bir çox sahələrinədək müasir texnologiyanın tətbiqi muxtar respublikanın dayanıqlı inkişafına ciddi təkan verməkdədir. Bu istiqamətdə diqqəti cəlb edən sahələrdən biri də bank sektorudur. Naxçıvanda rəqəmsal ödəniş infrastrukturunun təkmilləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər nağdsız dövriyyənin həcminin əhəmiyyətli dərəcədə artması ilə nəticələnmişdir. Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə “2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram” təsdiq edilmişdir. Proqramın giriş hissəsində deyilir: “Nağdsız hesablaşmalar sahəsində görülmüş işlərin növbəti mərhələsi olan yeni proqramın məqsədi əhali, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş imkanlarının daha da genişləndirilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsindən ibarətdir”. Proqramda nəzərdə tutulan tədbirlərin icrası muxtar respublikada rəqəmsal ödəniş xidmətləri sahəsində fəaliyyət imkanlarının hər keçən il daha da təkmilləşməsinə imkan yaradır.

Bu tədbirlər yanvar-mart aylarında da davam etdirilmiş, banklar tərəfindən 120 təmassız ödəniş etməyə imkan verən POS-terminal, 16 çoxfunksiyalı ödəniş terminalı və 1 bankomat quraşdırılmışdır. Proqramda müəyyənləşdirilmiş tapşırığın icrası məqsədilə birinci rübdə muxtar respublikada fəaliyyət göstərən 3 publik hüquqi şəxs statuslu müəssisənin 10 obyektində ödənişlərin nağdsız qaydada aparılması üçün POS-terminal quraşdırılması təmin edilmişdir. Görülən işlər nəticəsində Naxçıvanda POS-terminalların sayı 711-i təmassız ödəniş imkanlı olmaqla, 1437-yə, bankomatların sayı 115-ə, ödəniş terminallarının sayı isə 95-ə çatdırılmışdır.

Muxtar respublikamızda fəaliyyət dairəsi genişlənən sahələrdən biri də məsafəli bank xidmətləridir. Banklar tərəfindən müştəri məmnunluğunun təmin edilməsi məqsədilə təklif edilən bu xidmətlər vaxta qənaət edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Ödəniş terminallarından istifadə imkanlarının artırılması isə banka getmədən kredit və digər ödənişlərin həyata keçirilməsi üçün geniş şərait yaradır. Proqramda nəzərdə tutulan və icrası uğurla həyata keçirilən işlərin nəticəsi olaraq birinci rübdə muxtar respublikada fəaliyyət göstərən banklarda 1627 onlayn kart sifarişi həyata keçirilmişdir. Bununla yanaşı, bankların kredit müştərilərinin 20 milyon 420 min 299 manat məbləğində kredit ödənişini banka getmədən ödəniş terminalları vasitəsilə ödəməsi əhalinin rahatlığının təmin edilməsinə hesablanmış addımların səmərəlilik dərəcəsinin yüksək səviyyədə olmasından xəbər verir.

Nağdsız ödənişlərin həcminin çoxalması maliyyə sektorunun inkişafını dayanıqlı hala gətirir. Rəqəmsal ödəniş xidmətlərindən istifadə, öz növbəsində, vergi sisteminin səmərəliliyinin artmasına da şərait yaradır. Proqramın icrasına uyğun olaraq birinci rübdə 203 vergiödəyicisi tərəfindən POS-terminal hesabına alınmış kartlar vasitəsilə 77 min 475 manat, 506 vergiödəyicisi tərəfindən isə şəxsi kartları vasitəsilə 157 min 178 manat məbləğində vergi və sosial ayırmaların nağdsız qaydada ödənilməsi təmin edilmişdir. Bu dövrdə özəl sektorda 42 vergiödəyicisi üzrə 302 işçinin əməkhaqqının ödəniş kartları vasitəsilə ödənilməsinin təmin olunması bu istiqamətdə rəqəmsal xidmətlərin tətbiqinin diqqətdə saxlanılmasının əyani sübutudur.

Proqramın icrasına uyğun olaraq rəqəmsal ödəniş xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi nəqliyyat sektorunda da xidmət səviyyəsinin artırılmasına gətirib çıxarır. Birinci rübdə muxtar respublikada fəaliyyət göstərən aviakassalarda mövcud olan 10 POS-terminal vasitəsilə 91 min 337 manat məbləğində nağdsız qaydada bilet satışının həyata keçirilməsi bunun daha bir ifadəsidir.

Nağdsız dövriyyənin genişlənməsini təmin edən mühüm faktorlardan biri də istehlakçıların rəqəmsal ödəniş xidmətlərindən istifadə etməkdə maraqlı olmasıdır. Bu istiqamətdə həyata keçirilən maarifləndirici tədbirlər əhalinin maliyyə savadlılığının artırılması baxımından xüsusi önəmə malikdir. Proqramın icrası məqsədilə birinci rübdə Naxçıvan şəhərində yerləşən ümumtəhsil məktəbləri və Naxçıvan Dövlət Texniki Kollecində 1160-dan çox şagird, tələbə və müəllimə rəqəmsal ödəniş xidmətləri haqqında zəruri biliklərə dair müvafiq məlumatlar verilmiş, təhsil işçilərinə ticarət və ictimai iaşə obyektlərində nağdsız qaydada əməliyyatların aparılmasında fəal iştirak etmələri tövsiyə olunmuşdur. Həmçinin bu dövrdə Şərur rayonunun Xanlıqlar, Babək rayonunun Şıxmahmud, Ordubad rayonunun Vənənd, Culfa rayonunun Saltaq, Kəngərli rayonunun Xok, Şahbuz rayonunun Şahbuzkənd və Sədərək rayonunun Sədərək kəndlərində proqramın icrasına uyğun olaraq maarifləndirmə işi aparılmışdır.

Əhali arasında rəqəmsal ödəniş vərdişlərinin aşılanması üçün həvəsləndirici tədbirlərin mühüm əhəmiyyəti vardır. Nağdsız ödənişlərin stimullaşdırılması üçün proqramda nəzərdə tutulan müvafiq tapşırığın icrası xüsusi önəm kəsb edir. Birinci rübdə “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin 14-cü tirajı keçirilmiş, 442 şəxsə 25 min manat dəyərində hədiyyələr təqdim olunmuşdur.

Proqramın icrası istiqamətində tədbirlərin davam etdirilməsi muxtar respublikada bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsini təmin edəcəkdir.

**“Şərq qapısı”**

*Aşıq Ələsgər – 200*

## Aşıq Ələsgərin yaradıcılığında məkan adları



***Azərbaycan folklorunun ən qədim qollarından biri də aşıq yaradıcılığıdır. Aşıq sənətinin tarixi xalqımızın özü qədər qədimdir. Sinkretik səciyyə daşıyan aşıq sənətinin və onun ayrılmaz tərkib hissəsi kimi təzahür edən aşıq ədəbiyyatının ilkin təşəkkül və biçimlənmə prosesi, əsasən, XIII-XV əsrləri əhatə edir. Azərbaycan folklorunda müxtəlif aşıq məktəbləri mövcuddur. Fikrimizcə, bunlardan ən böyüyü, öz dəstxəti, üslubu olan, aşıqlıqda avanqard rolu ilə seçiləni Göyçə aşıq məktəbidir. Göyçə aşıq sənətinin kökləri xalqımızın qədim tarixinə gedib çıxır. Göyçə aşıq məktəbi dedikdə, ilk növbədə, Aşıq Ələsgər yada düşür. Aşıq Ələsgərin həyat və yaradıcılığı, qoşma və təcnislərinin poetikası, üslubi və dil xüsusiyyətləri istər ədəbiyyatşünaslar, istərsə də dilçilər və folklorşünaslar tərəfindən illərlə tədqiq olunmasına baxmayaraq, bu böyük sənətkarın yaradıcılığında hələ öyrənilməmiş məqamlar da çoxdur.***

Aşıq yaradıcılığı Naxçıvanda da qədimdən bəri inkişaf etmişdir. Təbii ki, Aşıq Ələsgərin və Göyçə aşıq məktəbinin Naxçıvan aşıq mühitinə birbaşa təsiri olmuşdur. Mənbələrə görə, Aşıq Ələsgər tez-tez Naxçıvanda toy məclislərində olmuş, onun qoşma və təcnisləri daim Naxçıvan aşıqlarının repertuarında səslənmişdir. Şəhər mədəniyyətinin varlığı, Naxçıvan əhlinin şeir və sənətə olan həvəs və məhəbbəti bu qədim torpaqda aşıq sənətinin fəaliyyətinə şərait yaratmışdır. Naxçıvan aşıq məktəbi Göyçə aşıq mühiti ilə yaxın sənət əlaqəsində olmuşdur. Aşıq Ələsgərlə Naxçıvan aşıq mühitinin yaxın əlaqəsi olduğunu "Aşıq Ələsgərin Naxçıvan səfəri"ndən açıq-aydın görürük. Aşıq Ələsgərin yaradıcılığında Naxçıvanın müqəddəs məkanlarından olan Əshabi-Kəhfin, məşhur Ağrı dağının adının çəkilməsi də təsadüfi xarakter daşımır. Məsələn:

*Onları xəlq edən xudam qənidi,*
*Səxavət əhlidi, kərəm kanıdı.*
*Əshabi-Kəhf neçə nəfər can idi?*
*Adları nə idi onu biləsən?*
*Durur nişanası Ağrı dağında,*
*Nuhun qiyaməti qaldı ki, qaldı.*

Aşıq Ələsgərin Naxçıvan səfərində aşığın bir çox şeirləri, XIX-XX əsr Naxçıvan aşıq mühiti və Naxçıvan aşıq mühiti ilə sıx sənət və yaradıcılıq ənənələrinə malik olan Göyçə aşıq mühiti, xüsusən də Dədə Ələsgər yaradıcılığı müşahidə olunur.

Aşıq Ələsgərin yaradıcılığına nəzər saldıqda görürük ki, aşığın toxunmadığı heç bir ictimai-sosial məsələ yoxdur. Aşığın əsərlərini oxuduqca, onun yaradıcılığına bələd olduqca Dədə Ələsgərin – oxumaq-yazmaq bilməyən böyük dünyagörüşünə, dini biliklərə, Vətəninin coğrafiyasına, tarixinə bələdliyinin şahidi oluruq.

Xalqın tarixi onun folklorunda əks olunur. Aşıq yaradıcılığında işlənən yer adları tarixi ifadə etmək baxımından olduqca zəngin material verir. Aşıq Ələsgər yaradıcılığında Azərbaycan xalqının məskən saldığı ərazilər, həyat tərzi poetik şəkildə ifadə olunur. Azərbaycan toponimləri tariximizin qədimliyini sübuta yetirən faktlardandır. Aşıq Ələsgərin yaradıcılığında ən çox nəzəri cəlb edən yer-yurd adlarımızın işlənməsidir. Azərbaycan təbiətinə, dağlarına, çay və göllərinə, ən kiçik obasına belə, dərindən bələd olan, bu yerləri canı, qanı qədər sevən Dədə Ələsgər onların adlarını yaratdığı qoşma, təcnis və gəraylılarında əbədiləşdirmişdir.

*Ələsgər gəlibdi əcəb yığnağa,*
*Şəki, Şirvan bir telinə sadağa,*
*Necə zinət verib eyvan, otağa,*
*Ətri qoxur Bağdad baharı kimi.*

Aşıq Ələsgər yaradıcılığında işlənmiş məkan adlarının – toponimlərin statistikasını çıxaranda, ilk növbədə, onun şahidi olduq ki, aşığın əsərlərində ən çox işlənən yer adı onun doğulub boya-başa çatdığı Göyçə mahalının adıdır:

*Adım Ələsgərdi, Göyçə - mahalım,*
*Dolanım başına, mən qadan alım.*

Digər bir nümunəyə nəzər salaq:

*Ələsgərin toy işi var əlində,*
*İşi təhər tapmır Göyçə elində.*

Aşıq özünün, ata-babasının da Göyçə sakini olmasını fəxarətlə əsərlərində bildirir.

*Atam Alməmməddi, Göyçə sakini,*
*Adım Ələsgərdi, yaxşı bil, tanı!*

Aşığın əsərlərini oxuduqca, sanki nəinki Azərbaycanı, bütün Qafqazı gəzirsən. Hətta Azərbaycandan coğrafi cəhətinə görə xeyli uzaqda yerləşən şəhərlərin, ölkələrin adı belə, aşığın qoşma və təcnislərində əbədiləşib:

*Camalını görən olur müştəri,*
*Misirdə Yusifin bazarı kimi.*

Ümumiyyətlə, bədii ədəbiyyatda, folklorda işlənən toponimlərin çoxluğu əsəri yaradan sənətkarın bilik və dünyagörüşü dairəsinin genişliyi ilə əlaqədardır. Sənətkar yaradıcı gücü, istedadı, həyat təcrübəsinin rəngarəngliyi sənət nümunələrindəki toponimlərdə yer, məkan adlarında təcəssüm olunur. Ustad işlətdiyi toponimlərə xüsusi önəm verir. Bu tip xüsusi adların qoşma və təcnislərdə işlənməsi sənətkarın və əsərin yalnız bədii gücünü və sənətkarlığını artırır. Əgər əsərin mövzusu həyatdan götürülmüşsə, o zaman coğrafi adlar konkret məzmuna malik olub üslubi çalar daşıyır. Bu zaman hər hansı onomastik vahid artıq öz funksiyasını müəyyən dərəcədə dəyişir, daha çox bədii dilə xidmət edir. Poetik toponimika, poetik hidronimika, poetik oronimika artıq bədii üslubda əsərin süjetinə, kompozisiyasına, quruluşuna, ideyasına və s. xidmət edir. Əsəri yazan sənətkar – Aşıq Ələsgər, ilk növbədə, hadisələrin cərəyan etdiyi məkanı seçir, qoşma və təcnislərdə məqamında işlənən məkan isimləri bədii dilin təsir gücünü artırmaqla bərabər, əsəri daha poetik və oxunaqlı edir. Məkan isimlərinin işlənməsi Aşıq Ələsgər yaradıcılığına ayrıca bir rəng qatır.

Mənbələrdə Aşıq Ələsgərin təhsilinin olmadığı göstərilir. Yəni ki, aşıq oxuma-yazma bilmirdi. Bununla belə, bu el sənətkarının əsərlərində qədim Şərq şəhərlərinin adları işlədilir. Bu şəhər adları, məkan isimləri Ələsgərin şeirlərində müəyyən dini rəvayətlə, hadisəylə bağlı görünür. Deməli, oxuma-yazma bilməsə belə, Aşıq Ələsgər Şərq ədəbiyyatını, xüsusilə İslam dini ilə bağlı rəvayətlərə mükəmməl bələd olmuşdur.

Aşıq Ələsgər, ilk növbədə, mömin müsəlman idi. Namaz qılıb, oruc tuturdu. İslam dinini gözəl bilirdi. Onun yaradıcılığında İslam dininin müqəddəs şəhərlərinin adına da tez-tez rast gəlinir:

*Bu təzə kəlamdı, olsun yəqini,*
*Kəbə - qibləm, dinim - Məhəmməd dini*

Dağlar qoynunda yaşayan, oxumaq-yazmaq bilməyən Aşıq Ələsgər çox böyük dünyagörüşünə malik sənətkar idi. Onun yaradıcılığında qəribə də olsa, hətta Avropa ölkələrinin adına da rast gəlinir:

*Necoldu Serbiya, Çernoqoriya?!*
*Əl-ayaq altında itdi İtalya,*
*German bomba atdı, qan oldu dərya,*
*Qırıldı, dünyada insan qalmadı.*

Aşıq Ələsgər məclisdə ifa edə-edə yaradırdı, yarada-yarada ifa edirdi. Bu, çox sənətkarda olmayan bir qabiliyyət idi.

Aşıq ədəbiyyatını yaradan sənətkarlar bədahətən şeir söyləmək qabiliyyətinə, yüksək bədii zövqə, dərin sənət biliyinə, şəriət və təsəvvüf elmi ilə bağlı mükəmməl təsəvvürlərə malik elm və fəzilət sahibləri olmuş, dərin elm və hikmət sahibləri kimi tanınmışlar.

Aşıq yaradıcılığında, o cümlədən Aşıq Ələsgərin əsərlərində hifz olunan toponimik adların həm folklorşünaslıq, həm də linqvistik aspektdə təhlili müasir dövr üçün çox aktualdır.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi respublikamızda və onun hüdudlarından kənarda tarixi hadisə kimi qiymətləndirildi. Azərbaycanlıların əzəli yurdlarından olan qədim Göyçə mahalında, doğulduğu kənddə Aşıq Ələsgərin qəbirüstü abidəsi ucaldıldı. Həmin əzəmətli büst soydaşlarımız öz dədə-baba torpaqlarından didərgin salındıqdan sonra erməni vandalları tərəfindən dağıdılsa da, milli mədəni varlığımızın tərkib hissəsinə çevrilmiş və Aşıq Ələsgər irsi silinməz tarixi yaddaş rəmzi kimi yaşamışdır.

2021-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illiyinin tamam olması münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 18 fevral tarixli "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı və sərəncamdan irəli gələn məsələlərin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncamı elmin inkişafına xidmət edir. Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tutan Aşıq Ələsgərin zəngin poetik irsi Azərbaycanın bir çox aşıqları üçün əsl sənətkarlıq məktəbidir.

**Əkrəm HÜSEYNZADƏ**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent*

***Bir şəhid həyatı danışım sizə. O şəhid ki bu zirvəni fəth edənlərdən biri olub. O şəhid ki qəlbində torpaq, yurd sevgisi əbədi yuva qurub. O şəhid ki seçdiyi peşəsinə qəlbən bağlı olan, Vətən, torpaq uğrunda gedən döyüşlərdə sinəsini sipər edən oğullardandır –Elməddin Həsənov.***

*Əfsanəyə dönən ömürlər*

## Qarabağ torpağının azadlığı Elməddinin ən böyük arzusu idi...



...Budur, yol alıram şəhidin doğulub boya-başa çatdığı Kəngərli rayonunun Şahtaxtı kəndinə. Yolboyu sual dolu düşüncələrim məni tərk etmir, şəhidin yaxınları ilə söhbətə necə başlayacağımı düşünürəm.

Artıq mənzilə çatmışam. Şəhidin yaşadığı evin qapısını döyürəm. Başını qürurla uca tutan Nuranə xanım qarşılayır bizi – şəhidimin bacısı...

***Doğum gününü qeyd etməyi heç sevməzdi...***

Deyir ki, Elməddin 1996-cı il fevral ayının 25-də dünyaya gəlmişdi. O heç vaxt ad günü qeyd etməyi sevməzdi. Doğum tarixinin Xocalı hadisələri ilə üst-üstə düşməsinə görə istəmirdi kimsə onu təbrik etsin.Torpaqlarımız nə zaman azad edilər, elə o zaman toy-bayram, ən gözəl hədiyyə mənim olar, – deyirdi. Hələ kiçik yaşlarından hərbçi olub, əlinə silah alıb düşmənə zərbə endirməyi, torpaqlarımızın azad olunmağını arzu edirdi qardaşım. Etdiyi arzu, niyyət hasil oldu, II Qarabağ müharibəsində o da xüsusi təyinatlı kimi döyüşlərə qatıldı, qəlbində yanan torpaq həsrətinin alovunu düşməndən aldı. Şəhidlik zirvəsini fəth edib Vətən yolunda son nəfəsini verdi.

– Anam rəhmətə gedən bir gündən çox darıxırdı Elməddin, – deyə söhbətə davam edir Nuranə: – O, anamın şəklini hərbi paltarının cibində saxlayırdı. Anama söz vermişdi ki, düşmən əsarətində olan torpaqlara ayağı dəyəcək, şanlı üçrəngli bayrağımızı həmin torpaqlarda qürurla dalğalandıracaq. Arzusu idi Qarabağ torpağının azadlığını, bu xalqın Qələbə sevincini görsün...

– Mən onunla nəfəs alırdım, – deyir şəhid bacısı: – Qardaşım buradan gedəndə, sanki hiss etmişdi şəhid olacağını. Bizimlə vidalaşanda son kəlməsi o oldu ki, darıxmayın, həyatda yaşamaq da var, ölmək də, vüqarlı olun, başınızı hər zaman dik tutun, təki Vətən sağ olsun! Atamı və səni Allaha əmanət edirəm, – dedi. Onunla gündə bir dəfə də olsa, danışıb səsini eşidirdim. Elə o zaman rahat nəfəs almağa başlayırdım. Bir gün çox təlaşlı halda yuxudan ayıldım, ifadə edə bilməyəcəyim bir sükut çökmüşdü qəlbimə. Səhərisi günü qardaşımın şəhidlik xəbərini aldıq. Anamı itirdikdən sonra qardaşım mənim üçün hər şey olmuşdu, anamın yoxluğunu qardaşımla unutmağa çalışırdım. Aldığım xəbər nə qədər acı olsa da, bir o qədər də vüqarlıyam, daha dik baxırdım həyat pəncərəsindən, çünki qardaşım ən uca zirvəyə yüksəlmişdi həmin gün. Elməddin və onun timsalında şəhid olan qardaşlarımız qaranlıq keçməzlərdən, işıqlı sabahımızdan boylanan azadlıq pöhrələri, ucalığa meydan oxuyan qəlb dünyamızdırlar. Onlar ərazi bütövlüyümüz uğrunda canlarından keçdilər.

***Arzuları yarımçıq qalan ata dağ vüqarlıdır ...***

Susqun nəzərlərlə şəhidin atası Elşən dayıya baxıram. O qədər dözümlü, o qədər iradəli dayanıb ki...

Düşünürəm ki, əhsən Elməddin kimi övladlar böyüdüb, yetişdirən belə atalara.

Elşən əminin söhbəti: – İllər öncə həyat yoldaşımı itirmişəm. Sonra isə övlad itkisini yaşadım. Arzularım vardı oğlumun həyatı ilə bağlı. Mən də bütün valideynlər kimi toy edəcəkdim Elməddinə. Toyunu görə bilmədim oğlumun... Vətən sağ olsun. Çoxdan gözlədiyimiz gün gəldi. İgid oğullarımızın sayəsində torpaqlarımızın azadlığına qovuşduq. Elməddin kimi oğullarımız qürur mənbəyimiz, fəxrimiz, vüqarımız, bugünkü nəslə örnəyimizdir. Oğlum çox istiqanlı, mərd idi. Bizim hər qayğımıza qalırdı, öz işini də çox sevirdi. Hər gün həvəslə oyanıb işə gedirdi. Oğlum bir amalla yaşayırdı, Qarabağımızı gec-tez azad edib, şanlı bayrağımızı ən uca zirvədə dalğalandıracağıq, – deyirdi. Bu gün artıq Elməddinin ruhu şaddır. Çünki arzusu çin olub, özü isə istədiyi ali məqamdadır.

***Elməddin kimi yüzlərlə oğullar yetişib Naxçıvanda...***

Şəhid Elməddin Həsənovun komandiri Azər Rüstəmovla həmsöhbət oluram. Deyir ki, Elməddin çox ağıllı, cəsur, igid, mərdliyi ilə seçilən hərbçilərimizdən idi. Vətən müharibəsi yenicə başlamışdı ki, cəsur, igid oğlumuz yanıma gəldi və dedi: "Komandir, bizim qardaşlarımız cəbhədə vuruşur, bəs biz niyə aparmırlar? Bizə tapşırıq verilsin, gedək, döyüşək, torpaqlarımızı azad edək, geri dönəndə hamımız qurban kəsərik". Bu söhbətdən 3-4 gün keçmişdi ki, döyüş bölgəsinə yollandıq. Çox sevincli idi döyüşlərə qatıldığı üçün. Qələbə əzmi ilə yerə-göyə sığmırdı naxçıvanlı igidimiz. Elməddin döyüşlərə qatıldığımız ilk günlərdən öz hərbçilik bacarığını, igidliyini, qorxmazlığını göstərə bildi. Onunla söhbətləşən zaman "müharibədən sağ-salamat qayıdaq, toyumuzu bir edək, bu torpaqlara ailəmizlə birgə gələrik", – dedi. Növbəti tapşırıq vaxtı ilk düşmən səngərini ələ keçirdikdən sonra düşmən geri çəkilməyəcəyimizi görüb iri iriçaplı silahlarla atəşə tutmağa başladı. Elə bu anda Elməddin ağır yara aldı. Həmin məqamda vüqarla "Qarabağ Azərbaycandır!" kəlməsini deyib, gözlərini əbədi olaraq yumdu.

Şəhidimizin izləri, nəfəsi yaşayan evdən ayrılarkən buradakı ailə üzvlərinin qəlblərindəki böyüklüyə heyran qalmışdım. Düşünürdüm ki, xalqımız Vətən müharibəsində canından keçən şəhidlərimizə hər zaman borcludur. Həyatları gənc yaşlarında sönən igidlərimiz hər birimizin qəlbində yaşayır, həmişə də yaşayacaqlar. Qəhrəmanlıqla vuruşan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatını qurban verərək ən uca zirvəyə – şəhidlik məqamına ucalanların xatirəsini anmağa həmişə borcluyuq:

*Ey əziz şəhidim, sayına qurban,*
*Vətən torpağında qanın tökülən*
*O yurda, o yerə, canına qurban.*
*Axsa da üzünə indi göz yaşın*
*Zəfər səninkidir, əziz qardaşım.*
*Adınla ucaldı bu haqq savaşın,*
*Belə şöhrətinə, şanına qurban!*

**Nuray ƏSGƏROVA**

## Memarlıq və robotexnika üzrə sərgi keçirilib



Naxçıvan Dövlət Universiteti Memarlıq və mühəndislik fakültəsində Memarlıq və robotexnika üzrə sərgi keçirilib. Sərgini giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev bildirib ki, texnologiya ilə bağlı sahə olan robotexnika elminə müasir dövrümüzdə xüsusi maraq vardır. Qeyd olunub ki, tələbələrin nəzəri biliklərinin praktik olaraq həyata keçirilməsi məqsədilə yeni yaradılan Robotexnika kabinəsi zəruri avadanlıqlarla təhciz olunub. Fakültədə Qeyri-səlis məntiq nəzəriyyəsi, Süni intellekt, Nanotexnologiya, Mexatronika və Robotexnika kimi yeni seçmə fənlər tədris olunacaq.

Memarlıq və mühəndislik fakültəsinin dekanı, professor Cavanşir Zeynalov bildirib ki, tələbələr Robotexnika kabinəsində sxematexnika və kodlaşdırma ilə də məşğul olurlar. Burada tələbələr özlərinin sərbəst işlərini, kurs işi və startap layihələrini yerinə yetirmək üçün burada hər bir şərait yaradılıb.

Sonra 15 eskiz, 20 memarlıq layihəsi, 20 xalçaçılıq ornomentinə dair müəllim və tələbələrin əl işlərinin təqdim olunduğu sərgiyə baxış olub. Müxtəlif binaların eskizləri, hazır maketlər, birmərtəbəli, ikimərtəbəli, çoxmərtəbəli binaların, eləcə də fakültənin gələcəkdə qurulması nəzərdə tutulan binasının layihəsi sərgidə nümayiş olunub. Sərgidə, həmçinin muxtar respublikada tikintisi həyata keçirilən, inşa etmək üçün qəbul edilən layihələr də yer alıb. Tələbələr sərgidə müxtəlif maketlər də təqdim ediblər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Yeni fotoalbomun yaradıcı heyəti Naxçıvandan xoş təəssüratlarla ayrılıb

***Heydər Əliyev Fondunun layihəsi çərçivəsində hazırlanan "Azərbaycan kitabı"nın nəşri üçün budəfəki çəkilişlər muxtar respublikamızda aparılıb. Ölkəmizin hər bir guşəsi haqqında müfəssəl məlumat vermək məqsədilə hazırlanmış nəşrdə xalqımızın qədim tarixi, mədəniyyəti, ənənələri, etnoqrafik xüsusiyyətləri ilə yanaşı, muxtar diyarımızın zəngin və bənzərsiz təbiətini əks etdirəcək fotoşəkillər də veriləcək. Bir sözlə, bu kitab oxucuya Naxçıvanı qarış-qarış gəzmək imkanı yaradacaq. Bu məqsədlə Naxçıvana gələn yaradıcı heyət diyarımızın bir çox yerlərində olub, maraqlı video və fotolar qeydə alıb, diyarımızdan xoş təəssüratlarla ayrılıblar. Burada olduqları zaman biz də peşəkar fotoqraflarla həmsöhbət olmuş, onlardan Naxçıvan haqqında təəssüratlarını öyrənmişdik. Onların fikirlərini oxucularımıza təqdim edirik.***



*Orxan Aslanov – Fotoqrafiya məktəbinin təsisçisi, "My Azerbaijan" layihəsinin rəhbəri:* – Əvvəlcə layihə barədə sizi məlumatlandırım. Bu layihəyə Heydər Əliyev Fondu tərəfindən ölkəmizin zəngin və bənzərsiz təbiətini əks etdirən fotoalbom yaratmaq məqsədilə start verilib. Layihənin icrası nəticəsində 2010-cu ildə "Azərbaycan kitabı" dərc edilib. Bu, kitabın ilkin variantı idi. Layihənin işçi qrupu sırasında yerli və xarici mütəxəssislər, o cümlədən peşəkar fotoqraflar yer alıb. Biz komanda ilə birgə ölkəmizin müxtəlif bölgələrində, şəhər və kəndlərində, dağ və düzənliklərində, meşə və çəmənliklərində, göl və çaylarında fotoçəkilişlər aparırıq, ölkəmizin təbiətini ilin hər bir fəslində əks etdirməyə çalışırıq və bu fəaliyyət davam edir. İşimiz bitəndə çox böyük, nadir bir fotomaterial ərsəyə gələcək. Kitab ölkəmizin təbiəti, tarixi, mədəniyyəti, dünəni və bu günü ilə maraqlananlar üçün unikal bir vəsait olacaq. Naxçıvana da bu məqsədlə gəldik. Ötən il də burada olmuşam. Naxçıvanın misilsiz, inanılmaz dərəcədə gözəl, əsrarəngiz, ecazkar və heyrətamiz təbiəti vardır. Mənə elə gəlir ki, Naxçıvanın gözəlliklərini tam görmək üçün bir ömür də çatmaz. Burada vəhşi təbiətə qayğı və sevginin şahidi olduq. Göy göl, Batabat, Haçadağ, Darıdağ kimi inanılmaz yerlərdə çəkilişlər apardıq. Niyə inanılmaz deyirəm, bunu sizə izah edim. Ordubadın Göy gölünə getdik. Buradakı füsunkar mənzərə bizi heyran etdi. Ordubadda, Naxçıvanda hava isti olduğu halda, orada qış fəsli yaşanır. Möhtəşəm mənzərələrdir. Bu bizə təbiətə fərqli rakurslardan yanaşmağa kömək etdi. Buraya yenidən qayıtmağı planlaşdırırıq. Xüsusilə vəhşi təbiəti çəkmək bu dəfə bizim üçün birinci olacaq. Sizə deyim ki, Naxçıvanı sevənlər çoxdur. Çəkdiyim fotolardan bir neçəsini sosial şəbəkədə paylaşdım. İstədim ki, izləyicilər Naxçıvanın gözəlliyini bir də mənim gözümlə görsünlər. Bu zaman Naxçıvana hədsiz marağın şahidi oldum.



*Zaur Mirzəyev – Bakı Media Mərkəzinin fotoqrafı:* – Naxçıvana ikinci səfərimdir, amma hər dəfəsində özümü, sanki ilk dəfə gəlirmiş kimi hiss edirəm. Çünki burada görmədiyim, bilmədiyim, araşdırmadığım yerlər çoxdur. İlk və budəfəki səfərim də "Azərbaycan kitabı"nın çəkilişləri ilə bağlı idi. Bakı Media Mərkəzi olaraq bir neçə ildir ki, başqa həmkarlarımla birlikdə bu layihə üzərində işləyirik. Pandemiya layihənin gedişatına bir az təsir etsə də, işimiz davam edir. Görüləcək, çəkiləcək yerlər hələ çoxdur. Nəticədə, Azərbaycanın mədəniyyətini, təbiətini, tarixini və müasirliyini əks etdirən bir kitab ərsəyə gələcək. Bu da ölkəmizin daha da çox tanınmasında bir təkan rolu oynayacaq.



Naxçıvanla bağlı təəssüratlarım barədə deyə bilərəm ki, həmişə daha da müsbətə doğru dəyişir. İlk növbədə, burada insanların qonaqpərvərliyini, səmimiliyini qeyd edərdim. Və əlbəttə ki, təbiəti adamı valeh edir. Bu bölgənin bütün rayonlarında olmuşam. Hər dağı, hər daşı tarixdir. Əvvəlki səfərimdə, əsasən, tarixi məkanlarda çəkilişlər oldu. Tarixi yerlərin, demək olar, hamısında. Bu dəfə isə Batabat, Araz çayı sahili, Haçadağ, Göy göl, Pəzməri şəlaləsi, Duzdağ və digər yerlərdə çəkilişlər apardıq, Naxçıvanın təbiətini, mətbəxini çəkməyə çox zaman ayırdım. Mətbəx demişkən nədənsə Naxçıvanda yediyim hər yemək daha dadlı gəlir mənə, nəinki başqa bölgələrdə. Burada məni cəlb edən xüsusiyyətlər çoxdur. Əsasən, təbiətin qorunmasına ayrılan diqqəti qeyd edərdim. Bu, çox möhtəşəmdir. Təbiətə doğru hərəkət etdikcə vəhşi heyvanları görmək mümkündür. Bir sözlə, bura bir fotoqraf üçün cənnətdir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**









# Yeni tərkibdə yeni uğurlara imza atan federasiya

***Təbii ki, hər bir cəmiyyətin sağlam və fiziki cəhətdən güclü gənclərə ehtiyacı var. Belə bir vacib məsələnin xüsusi diqqət mərkəzində saxlanıldığı muxtar respublikada idmanın inkişafı istiqamətində qarşıya qoyulan vəzifələr uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində ötən müddət ərzində diyarımızın ümumtəhsil məktəblərində müasir standartlara cavab verən idman klubları, hər cür şəraiti olan olimpiya idman kompleksləri, üzgüçülük mərkəzləri, Atıcılıq Mərkəzi, uşaq-gənclər şahmat və idman məktəbləri tikilərək istifadəyə verilib. Bu sahəyə olan qayğının nəticəsidir ki, muxtar respublikada idmanın müxtəlif növləri üzrə peşəkar idmançılar yetişdirilir, qazanılan nailiyyətlər ildən-ilə artır, ölkə və beynəlxalq səviyyəli yarışlarda yüksək nəticələr əldə olunur.***

Muxtar respublikada müvafiq idman sahələri üzrə federasiyalar, o cümlədən Naxçıvan Muxtar Respublikası Atletika Federasiyası yeni tərkibdə fəaliyyətini davam etdirir. Federasiyanın strukturunda edilən dəyişikliklərdən sonra Yüngül Atletika Federasiyasının adı dəyişdirilərək Atletika Federasiyası olmuş və Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur Rayon Ağır Atletika Bölməsi ilə "Xatun" Bədii Gimnastika İdman Klubu da federasiyanın tərkibinə daxil edilmişdir. Federasiya əvvəlki fəaliyyətindən fərqli olaraq əhatə etdiyi idman növləri üzrə muxtar respublikada kütləviliyin təmin olunması məqsədilə mühüm tədbirlərin keçirilməsini diqqətdə saxlayır.



Qeyd etmək yerinə düşər ki, 2020-2021-ci tədris ilinin əvvəlindən federasiyanın şəhər və rayon bölmələrində atletika idman növü üzrə kütləviliyə nail olunması üçün təbliğat yönümlü tədbirlərin bəhrəsidir ki, bölmələrə cəlb edilən idmançıların sayı xeyli artıb. Vaxtilə Yüngül Atletika Federasiyası kimi fəaliyyət göstərən zaman idmançıların sayı 800-ə yaxın idisə, bu gün Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının müxtəlif bölmələrində bu idman növü ilə məşğul olan idmançıların sayı 1800-ə çatır. Həmçinin qeyd edək ki, həmin idmançılardan 700-dən çoxunu qadın atletlər təşkil edir.

İdmanın müxtəlif növlərinin inkişafı, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, eləcə də istedadlı idmançıların üzə çıxarılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası məqsədilə ötən müddət ərzində Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində 12 idman növü üzrə 186 idman klubu yaradılıb. Onlardan 29-u atletika, 3-ü ağır atletika, 5-i isə bədii gimnastika klubudur. Həmin klubların fəaliyyətinin daha da inkişaf etdirilməsi məqsədilə Atletika idman klubu üçün 10 dəst atletika səddi, 14 dəst yadro və 26 ədəd start qəlibləri, Gimnastika idman klubu üçün 108 gimnastika döşəyi, müxtəlif ölçüdə 15 fitnes topu, 20 gimnastika ipi və 10 gimnastika lenti, Ağır atletika idman klubu üçün isə 3 dəst güc trenajoru, 4 trenajor aləti, 8 qrif, 1 velosiped, 1 xizək, 5 dəst ştanq üçün plastik çəki diski ilə təmin olunub.





Federasiya artıq bu ildən başlayaraq atletikanın şəhər və rayon bölmələrində qaçış növləri ilə yanaşı, ilk dəfə olaraq yadro itələmə və nizəatma növləri üzrə də yarışlar, məşğələlər keçirir. Belə ki, "5 mart Bədən Tərbiyəsi və İdman Günüdür", "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!", "Mən sağlam böyüyəcəyəm!" devizləri altında şəhər və rayon, muxtar respublika və zona birincilikləri, eləcə də məşqçi müəllimlər üçün ustad dərsləri və IV-VIII sinif şagirdləri arasında əyləncəli idman oyunları keçirilib. Əyləncəli idman oyunlarının Naxçıvan şəhər mərhələsi baş tutub, rayonlarda da keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, Azərbaycan Respublikası Gimnastika, Atletika və Ağır Atletika federasiyaları ilə Azərbaycan və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirlikləri və Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının birgə əməkdaşlığı çərçivəsində tədbirlərin, eyni zamanda muxtar respublikada məşqçi müəllimlərin təcrübələrinin daha da artırılması məqsədilə gimnastika, ağır atletika və atletika idman növləri üzrə beynəlxalq səviyyəli seminar və kursların keçirilməsi də nəzərdə tutulub.

Atletika Federasiyasının tabeliyində fəaliyyət göstərən "Xatun" Bədii Gimnastika İdman Klubu əvvəllər idman ictimai birliyi kimi bir bölmə ilə fəaliyyət göstərirdisə, bu gün beş bölmə ilə öz fəaliyyətini davam etdirir. Muxtar respublikanın ümumtəhsil məktəblərində yaradılan idman klublarında kadr potensialını formalaşdırmaq məqsədilə ümumtəhsil məktəblərində fiziki tərbiyə fənnini tədris edən və gimnastika müəllimi kimi fəaliyyət göstərən müəllimlər üçün ilk dəfə seminar təşkil olunub. Naxçıvan Muxtar Respublikası Atletika Federasiyası və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə baş tutan seminarda Şərur və Ordubad rayon təhsil müəssisələrinin, muxtar respublikanın ali və orta ixtisas məktəblərinin, Naxçıvan şəhər 5 və 14 nömrəli tam orta məktəblərin, ümumilikdə, 15 fiziki tərbiyə müəllimi iştirak edib. Azərbaycan Gimnastika Federasiyasının üzvü Humay Qafarovanın apardığı seminarlar Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində keçirilir. Seminarlarda müvəffəqiyyət qazanan müəllimlərə sertifikatlar təqdim olunacaq. Sertifikata layiq görüləcək müəllimlər isə ümumtəhsil məktəblərində yaradılan idman klublarında da öz fəaliyyətlərini davam etdirə biləcəklər.

Bundan başqa, muxtar respublikada ilk dəfə olaraq federasiyanın təşkilatçılığı ilə Ordubad və Şərur rayonlarında fəaliyyət göstərən ağır atletika bölmələrinin məşqçi müəllim və idmançı şagirdləri üçün ustad dərsləri keçilib.

Onu da qeyd edək ki, federasiyanın tədbirlər planına əsasən mayın 18-də ümummilli lider Heydər Əliyevin 98-ci ildönümünə həsr olunmuş ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında 5 kilometr kross qaçışı üzrə muxtar respublika açıq birinciliyi keçirilib.

*Bütün bunlar deməyə əsas verir ki, federasiyanın səmərəli fəaliyyəti hesabına idmanın inkişafı istiqamətində daha uğurlu nəticələr əldə olunacaq.*

**Ülviyyə HACIYEVA**

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 443